*ABUZƏR XƏLƏFOV*

# *AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TARİXİ*

*BAKI - 2001*

2001
1323

Ч733
X-47

*ABUZƏR XƏLƏFOV*

# *AZƏRBAYCANDA*
# *KİTABXANA İŞİNİN TARİXİ*

***(qısa icmal)***

M.F.Axundov adına
Azərbaycan M[illegible]
Kitabxana[illegible]

BAKI – 2001

ARXİV

Ч 733(2А)

*Bakı Dövlət Universiteti*
*Nəşriyyat Şurasının qərarı ilə çap edilir*

***Rəyçilər: Dos. R.Ə.Kazımov***
***B/m. A.Ə.Cəfərov***

***Redaktor: K.Aslan***

Abuzər Alı oğlu Xələfov
Azərbaycanda kitabxana işinin tarixi.

Kitabda Azərbaycanda kitabxana işinin tarixinə, kitabxanaların keçdiyi uzun və mürəkkəb yola qısa nəzər salınmış, qədim dövrələrdən başlayaraq zəmanəmizə qədər kitabxana işinin tarixi mərhələləri ümumiləşdirilmiş şəkildə şərh edilmişdir.

©Bakı Universiteti nəşriyyatı, 2001.

## Ön söz

*Azərbaycanda kitabxana işinin tarixi kursu yüksək ixtisaslı kitabxançı kadrların hazırlanmasında mühüm metodoloji əhəmiyyətə malikdir. Ona görə də bu fənnin yüksək səviyyədə tədrisi həmişə kitabxanaşünasların və mədəniyyət tarixçilərinin diqqət mərkəzində olmuşdur. Respublikamızda XX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda kitabxana işinin tarixinin tədqiqi və tədrisi sahəsində ciddi tədqiqatlar aparılmış, tədris və metodiki işlər xeyli genişlənmiş və təkmilləşmişdir.*

*Ancaq yeni latın qrafikasına keçməklə əlaqədar bu fənnə dair dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların kiril qrafikasında olması tədris prosesini olduqca çətinləşdirmişdir.*

*Göstərilən çətinliyi qismən də olsa aradan qaldırmaq, birinci kurs tələbələrini yığcam dərs vəsaitilə təmin etmək məqsədi ilə «Azərbaycanda kitabxana işinin tarixi» (Tarixi icmal) adlı vəsaitin nəşr edilməsi kitabxanaşünaslıq kafedrası tərəfindən məqsədə müvafiq hesab edilmişdir.*

***Müəllif***

## *AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TARİXİNƏ BİR NƏZƏR*

Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan xalqının çox qədim və zəngin kitab və kitabxana tarixi vardır. Azərbaycan ərazisində yazıya, kitab və kitabxanalara tariximizin çox qədim dövrlərində rast kəlmək mümkündür. Bəşər mədəniyyəti haqqında son tədqiqatlardan məlum olmuşdur ki, qədim dünyada böyük mədəniyyət yaratmış Şumerlər ilk yazının, kitabın və ilk kitabxanaların da beşiyi olmuşdur.

Erkən Azərbaycan dövlətlərinin: Lullumbum Aratta (e.ə III əsr), (e.ə XIII əsr), Kutium (e.ə.III əsr) və Mannanın (e.ə. I əsr) Şumer dövlətləri ilə qonşu olması, onlarla, geniş mədəni və diplomatik əlaqələr saxlaması Azərbaycanda da yazının, kitabın və kitabxanaların təşəkkül və inkişafına kömək etmişdir. Qaynaqlardan məlumdur ki, bu dövrdə Azərbaycan dövlətlərində yazı mədəniyyəti geniş yayılmış, heroqriflərlə yanaşı mixi yazılardan istifadə edilmiş, kitablar ya-zılmışdır. Yazı materialı kimi gil lövhələrdən istifadə edilməsi, gil lövhələr üzərində kitablar yazılması kitabların sayının artmasına, ilk kitab toplularının, kitabxanaların meydana gəlməsinə səbəb olmuşdur. Erkən Azərbaycan dövlətlərində baş vermiş bu böyük mədəni proses sonrakı əsrlərdə də davam etmiş, getdikcə təkmilləşmişdir.



Qədim Azərbaycan dövlətləri olan Kiçik Midiya, Atropaten (cənubi Azərbaycan e.ə. I əsr) və Albaniyada (şimali Azərbaycan e.ə. IV əsr) mədəniyyət inkişaf etmiş, məktəblər, kitab və kitabxanalar yaranmışdı. Bəşər mədəniyyətinin ən böyük abidələrindən biri qədim dünya ədəbiyyatının ən qiymətli incisi fəlsəfi, tarixi, həm də ədəbi-bədii dəyərə malik olan «Avesta» əsərinin Midiyada meydana gəlməsi, Midiyanın böyük mədəniyyətindən xəbər verir. Atropaten ərazisində əhali zərdüşt dininə sitayiş edirdi. Zərdüşt dininin müqəddəs kitabı «Avesta» bu dini öyrənmək və təbliğ etmək üçün ən qiymətli mənbə hesab edilirdi. Buna görə də «Avesta»nın ölkədə yayılmasına, onun nüsxələrindən ibarət kitab toplularının yaradılmasına diqqət yetirilirdi. Atəşpərəslərin ibadətkahları olan atəşgahlarda kitablar saxlanılırdı. Tarixi mənbələrə görə 21 cilddən 815 fəsildən ibarət olan «Avesta» 12.000 inək dərisi üzərində yazılmışdır. Bu rəqəm nə qədər mübaliğəli olsa da, «Avesta»nın həcm etibarı ilə dünyada çox böyük kitab olduğuna, qədim maqların yazı materialı kimi perqamentdən (dəridən) istifadə etdiyinə də əsaslı sübütdur. Çox təəssuf ki, bu qiymətli abidə zəmanəmizə gəlib çıxmamışdır. «Avesta»nın ilk variantı e.ə 330-cu ildə Makedoniyalı İsgəndər tərəfindən yandırılmışdır. Hazırda «Zend-Avesta» adı altında bizə gəlib çatmış bu müqəddəs kitabın hissələri III -VII əsrlərdə yenidən bərpa edilmiş nüsxələrdir.

Zərdüştlük dininin banisi Zərdüşt həsab edilir. Midiyada indiki Urmuya gölünun yaxınlığında (təxminən e.ə. VII əsrdə) anadan olmuşdur.

Dünyada ilk dəfə olaraq vahid allah, ulu tanrı ideyasını irəli sürən «Avesta» ən mükəmməl din olan zərdüştlüyün müqəddəs kitabı kimi bəşəriyyətə böyük xidmət göstərmiş, bütün dinlərin əsası, çıxış nöqtəsi kimi xidmət etmişdir.

Göstərilən dövrlərdə Cənubi Azərbaycanda (Kiçik Midiyada) olduqu kimi Şimali Azərbaycanda da geniş mədəni inkişaf hiss edilməkdə idi. Albanlar xristian olduğundan xristian mədəniyyəti, xristian dininə aid kitablar ölkədə geniş surətdə yayılırdı. Hələ e.ə. I əsrdə yazı ilə tanış olan Albanlar V əsrdə 52 hərfdən ibarət öz əlifbalarını yaratmışdılar. V əsrdə Albaniyada məktəblər var idi. Məktəblərdə zadəgan və ruhani uşaqları təhsil alırdı. Bu dövrdə bir sıra dini kitablar Alban dilinə tərcümə edilmiş, kilsələrdə və məktəblərdə kiçik kitabxanalar yaradılmışdı.

VII əsrdə Albaniyada ölkənin tarixinin tərtibinə başlanmış, Alban müəllifi Musa Kalankatlının «Alban tarixi» kitabı meydana çıxmışdı. Kitabda ölkənin mədəni həyatına dair qiymətli məlumatlar verilir. Kitabda IV-VII əsrlərdə Azərbaycanda Homerin «İlliadası». Vergilinin «Ensidası» məlum olması göstərilir.

VII əsrdə yaranmış «Kitabi-Dədə Qorqud» abidəsi Azərbaycan xalqının kitab mədəniyyətinin misilsiz nailiyyətidir. Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının elminin ən dəyərli abidəsi



olan bu kitab zəngin və qədim tariximizi öyrənmək üçün ən qiymətli mənbədir. 1300 ildən bəri Azərbaycan kitabxanalarının fondunun qiymətli incisi olan «Kitabi-Dədə Qorqud» oxucuların ən sevimli kitabı olmuşdur.

VII əsrin ortalarında ərəblərin Azərbaycanı işğal etməsi Azərbaycan kitab mədəniyətinə böyük zərbə vurdu. Ərəblərin islama qədərki yazı və əlifbanı, kitabları və kitabxanaları məhv etməkdə məqsədləri islam ideologiyasını mancəsiz yaymaq idi. Ərəb istilası zamanı əhaliyə islam dinini qəbul etdirmək və onu təbliğ etmək məqsədi ilə dini mərkəzlər, məscidlər məktəb və mədrəsələr (dini məktəblər) meydana gəlmişdir. Məhz bu dövrdən başlayaraq məscidlər və mədrəsələr Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış, islam mədəniyyətinin formalaşmasında yaxından iştirak etmişlər. Məscidlərdə islam dininin müqəddəs kitabı olan «Quran»ı təbliğ etmək üçün kiçik kitabxanalar yaranmış, məscid kitabxanalarının əsası qoyulmuşdu. Dini kadrlar hazırlayan mədrəsələrdə də tədris prosesinə kömək etmək üçün kitabxanalar yaradılmışdı. Beləliklə də, islamı qəbul etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da bütün orta əsrlər boyu məscid və mədrəsə kitabxanaları ölkə kitabxanalarının əsas tiplərindən biri kimi böyük inkişaf yolu keçmişdir.

Azərbaycanda ilk məscid kitabxanaları, Bərdədə, Gəncədə, Naxçıvanda, Şamaxıda, Nabranda, Bəyləqanda, Ərdəbildə, Təbrizdə, Marağada, Urmiyada və s. şəhərlərdə təşkil edilmişdir. Bərdədə təşkil

edilmiş «Cümə» məscidinin kitabxanasında qiymətli kitablar toplanmışdı. Orta əsrlər Azərbaycan kitabxanaçılığı tarixində mühüm bir mərhələ təşkil edir. Məhz bu dövrdə Azərbaycanda zəngin kitab fondlarına, geniş oxucu dairəsinə malik olan, keniş elm adamları ilə əhatə edilən kitabxanalar şəbəkəsi meydana gəlib formalaşmışdır. Orta əsrlərdə kitabxanaların yeni tipləri və növləri meydana gəlmişdir. Bunları təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: Saray kitabxanaları, dini kitabxanalar (məscid, məktəb və mədrəsə kitabxanaları) xüsusi, elmi kitabxanalar və şəxsi kitabxanalar.

Göstərilən kitabxanalar içərisində ən mühüm yeri Saray kitabxanaları tutur.

Saray kitabxanaları şahların, hökmdarların sarayında təşkil edilir, bilavasitə hökmdarlar tərəfindən idarə edilirdi. Orta əsrlərdə saray kitabxanaları təşkil etmək, onları nadir kitablar, qiymətli avadanlıqlar, gözəl binalarla təchiz etmək hökmdarlar arasında bir dəb halını almışdı. Şahlar və hökmdarlar öz kitabxanalarını ölkənin görkəmli elm adamlarına, din xadimlərinə və xarici qonaqlara göstərməklə fəxr edirdilər. Saray kitabxanaları, dövlət kitabxanaları olduğundan onların fəaliyyətinə dövlət nəzarət edir və maliyyələşdirirdi. Saray kitabxanaları olduqca zəngin və hərtərəfli, universal fonda malik idi. Hökmdarlar saray kitabxanalarını komplektləşdirmək üçün ölkə daxilində və xarici ölkələrdə olan ən nadir kitabları belə əldə etməyə çalışırdılar. Dövrün ayrı-ayrı alimləri, yazıçıları, şairləri, din xadimləri, xarici qonaqlar



və s. tərəfindən hökmdarlara hədiyyə edilən kitablar, həmçinin müharibələr zamanı qənimət kimi ələ keçirilən kitablar da saray kitabxanalarına daxil olurdu. Saray kitabxanaları kitabları toplayıb saxlamaqla yanaşı kitabların çoxaldılıb yayılmasında da mühüm rol oynayırdılar. Kitabxanalar böyük bir emalatxanaya bənzəyirdi. Burada kitabxanaçılarla yanaşı olaraq xəttatlar, rəssamlar, cildçilər, nəqqaşlar və başqa sənətkarlar da işləyirdilər. Kitabxanada yeni alınan kitabların üzü köçürülür, haşiyələri bəzədilir, nəqqaş və rəssamlar tərəfindən miniatürlər çəkilir, cildlənir və kitabxana fonduna daxil edilirdi.

Saray kitabxanalarına bir qayda olaraq öz dövrünün görkəmli alimləri və yaxud sənətkarları başçılıq edirdi, kitabxananın işçiləri isə görkəmli elm adamları idi.

Orta əsrdə Azərbaycanda saray kitabxanaları Gəncədə (XI-XII əsr), Şamaxıda (XII-XIII əsr), Təbrizdə (XIV-XVI əsr) və. s şəhərlərdə təşkil edilmişdi. Tarixi mənbələrdən məlumdur ki, XI əsrdə Gəncədə zəngin bir saray kitabxanası mövcud olmuşdur. Öz fəaliyyətini XII əsrdə davam etdirən bu kitabxana XII əsr Azərbaycan mədəniyyətinin inkişafında mühüm yer tutmuşdu. Dünya şöhrətli Nizami Gəncəvi kimi şairin yetişməsində Gəncə mühitinin böyük rolu olmuşdur. Gəncədə olan zəngin kitabxanalardan böyük Nizaminin istifadə etməsi şübhəsizdir. Şairin əsərlərindən görünür ki, bu böyük mütəfəkkirin çox geniş mütaliə dairəsi olmuşdur. XII əsrin ikinci yarısında Şirvanşahlar sarayında böyük bir saray kitabxa-

nası olmuşdur. Şirvanşahların dövlət kitabxanası kimi fəaliyyət göstərən bu kitabxananın bütün elm və mədəniyyət sahələrini əks etdirən zəngin fondu var idi. Kitabxanada şah fərmanlarının, dövlət sənədlərinin saxlanılması onun rəsmi dövlət kitabxanası statusuna malik olmasını əsaslandırırdı. Minlərlə kitabı olan bu böyük kitabxanaya dövrün ən görkəmli alim və şairləri rəhbərlik edirdi. Kitabxananın yanında şairlər məclisi var idi. Burada Əbul-Ula Gəncəvi, Xəqani, Fələki, İzzəddin Şirvani və s. görkəmli şairlər iştirak edirdilər.

XIV-XVI-əsrlərdə Ağqoyunlular, Qaraqoyunlular və Səfəvilər dövründə Azərbaycanda bir sıra zəngin saray kitabxanaları yaradılmışdır. Bu kitabxanalardan Cahanşah kitabxanası, Uzun Həsən kitabxanası, Sultan Xəlil kitabxanası və Sultan Yəqub kitabxanası daha zəngin kitabxanalar idi. Qaraqoyunlu kitabxanalarının banisi Cahanşah Qaraqoyunlu olmuşdur. Cahanşah şair idi. Elmə, mədəniyyətə, kitab və kitabçılıq işinə böyük qiymət verirdi. Kitablar yazılmasına, üzü çıxardılıb yayılmasına, kitabxanalar yaradılmasına xüsusi qayğı göstərirdi. Ağqonlular kitabxanalarının banisi isə Uzun Həsən olmuşdur. O, Təbrizi paytaxt etdikdən sonra Təbrizdə Dövlət kitabxanası təsis etmiş və bu kitabxananın ətrafında çoxlu, alim, şair, xəttat, rəssam toplamışdı. Uzun Həsənin saray kitabxanasında 58 nəfərdən ibarət kitabxanaçı işləyirdi. Belə bir maraqlı cəhət nəzər həqiqəti cəlb edir ki, Azərbaycan dövlət xadimləri kitabxananı dövlət müəssisəsi kimi inkişafına, mədəniyyətin inkişafına kömək edən xüsusi müəssisə kimi qiymət verir, onun inkişafına vəsait ayırırdılar. Kitabxanaya ayrılan vəsait şah sarayına ayrılan vəsait içərisində xüsusi yer tuturdu.



XIII əsrdə Qazan xanın hakimiyyəti dövründə Təbrizdə mədəniyyət xeyli inkişaf etmiş, islahatlar keçirilmiş, kitabxanalar yaradılmışdı. Bu dövrdə Qazan xan sarayda böyük bir kitabxana binası tikdirmiş, burada zəngin Saray kitabxanası yaratmışdı. Bu kitabxana dövlət kitabxanası kimi kitablarla yanaşı olaraq, dövlət fərmanlarını, sənədlərini, diplomatik məktubların və digər rəsmi sənədlərində saxlayıcısı idi. Qazan xanının islahatına dair fərmanları taxta, daş kitabələrə yazılıb ölkənin müxtəlif yerlərinə göndərilir və bildirilirdi ki, bu sənədlərin əsli Təbriz kitabxanasında saxlanılır. Şah kitabxananın yeni ədəbiyyatla komplektləşdirilməsinə xüsusi qayğı göstərirdi. Kitabxananı kitabdarlar idarə edirdilər. Kitabdarlar dövlət məmurları kimi əmək haqqı alırdılar. Bu böyük dövlət kitabxanasından başqa Təbrizin Şənbi-Qazan adlanan hissəsində daha iki böyük dövlət kitabxanası var idi. «Beytül-kütub» (kitab evi) və «Beytül-qanun» (qanun evi) adlanan bu kitabxanalar olduqca zəngin kitab fonduna malik idilər.

Azərbaycanda Orta əsr Saray kitabxanaları içərisində ən mühüm yeri XVI əsrdə görkəmli Azərbaycan Hökmdarı Şah İsmayıl Xətai tərəfindən yaradılmış, dünya şöhrətinə malik Təbriz Saray kitabxanası tutur.

XVI əsrin əvvəllərində Səfəvi dövlətinin yaranması, ölkənin iqtisadi və mədəni həyatına böyük təsir göstərdi. Şah İsmayıl Xətainin mədəniyyətə, elmə, ədəbiyyata incəsənətə böyük qayğısı kitabxanaçılıq işində böyük yüksəliş yaradırdı. XVI əsrin ilk günlərindən siyasi fəaliyyətə başlayan Şah İsmayıl Xətai (1502-1524) Təbrizdə öz sarayında və Ərdəbildə Şeyx Səfi məqbərəsində böyük kitabxanalar təşkil etməyə nail olmuşdu. Kitabxana üçün kitabların əldə edilməsi, kitab fondunun yeni qiymətli əlyazmaları ilə zənginləşdirilməsi işi ilə Şah İsmayıl şəxsən maraqlanırdı. Öz dövrünün ən zəngin kitabxanalarından biri olan kitabxananın fondunda şərqin ən nadir əsərlərinə belə rast gəlmək olardı. Kitabxananın fondunda on minlərlə kitab toplanmışdır. Şərqin ən böyük klassiklərinin: Nizaminin, Firdovsinin, Sədinin, Əssar Təbrizinin əsərləri kitabxananın rəflərini bəzəyirdi. Şah İsmayıl sarayda kitabxana üçün ən yaxşı otaqlar ayırmışdı. Şah saraya gələn qonaqlara öz kitabxanasını göstərməklə fəxr edərmiş. Saray kitabxanası təkcə kitabxana deyil, həmçinin əlyazma kitablarını hazırlayan, onu miniyaturlarla bəzəyən, gözəl bədii cildlərlə təmin edən bir emalatxana kimi də fəaliyət göstərirdi. Kitabxananın ətrafında görkəmli elm adamları, mədəniyyət və incəsənət xadimləri, rəssamlar və sənətkarlar toplanmışdı. Kitabxanada öz dövrünün ən görkəmli elm və sənət adamları fəaliyyət göstərirdilər. Şah İsmayıl Xətainin mədəniyyətə, elmə, ədəbiyyata və incəsənətə böyük qayğısı ölkədə kitabxana işində də böyük yüksəliş



yaratdı. Kitabxanaçılıq dövlət işi səviyyəsinə qaldırıldı. 1522-ci ildə Şah İsmayıl Xətai tərəfindən kitabxana işinə dair dövlət fərmanı imzalandı. Bu fərmanla dövrünün ən görkəmli rəssamı olan Kəmaləddin Behzad Saray kitabxanasının rəisi vəzifəsinə təyin edilmiş, kitabxananın və kitabxanaçıların vəzifələri müəyyənləşdirilmişdir. Beləliklə, Şah İsmayıl Xətai tərəfindən yaradılmış Təbriz Saray kitabxanası fondun zənginliyi, kitabxanada aparılan işlərin məzmunu və keyfiyyəti, kitabxanaçılarının səviyyəsi baxımından öz dövrünün ən böyük kitabxanası kimi dünya şöhrəti qazanmışdı. Kitabxana öz zəngin və nadir fondunun təşkili və yeni iş, forma və metodlarının rəngarəngliyi, sayəsində dünya kitabxanaçılığı tarixini zənginləşdirilmişdir.

Şah İsmayıl Xətainin vəfatından sonra kitabxanaya diqqət xeyli azalmış 1555-ci ildə Qəzvinə sonra isə İsfahana köçürülmüşdü.

Orta əsrlərdə Azərbaycanda yayılmış kitabxana tiplərindən biri də dini kitabxanalar: məscid, məktəb və mədrəsə kitabxanaları ol-muşdur.

Ərəblər Azərbaycanı işğal etdikdən sonra ölkədə islam dinini zorla qəbul etdirməyə başladılar. Ərəblər Azərbaycanda islam dinini, islam dininin müqəddəs kitabı olan «Qurani Kərimi» təbliğ etmək üçün ərəb əlifbasının yayılmasının və «Allahın evi» hesab edilən məscidlərin yaradılmasına başladılar. Ona görə də sürətlə Azərbaycanın böyük şəhərlərində və yaşayış məntəqələrində məscidlərin tikilməsinə böyük diqqət yetirilməyə başlandı. Tezliklə Bər-

dədə, Gəncədə, Bakıda, Naxçıvanda, Təbrizdə, Ərdəbildə, Şamaxıda və s. şəhərlərdə məscidlər meydana gəldi. Zaman keçdikcə məscidlər şəbəkəsi genişlənir, bütün yaşayış məntəqələrini əhatə edirdi. Məscidlər dini yayan əsas müəssisə olduğundan, məscidlərdə fəaliyyət göstərən ruhanilərin sayı artır, kitablar toplanır, kitabxanalar yaradılırdı.

Çox maraqlıdır ki, sonrakı illərdə məscidlərin ştat cədvəlinə xüsusi «kitabdar» kitabxanaçı ştatı daxil edilmişdi. Məscid kitabxanaları əsasən dini ədəbiyyatı saxlasalar da zaman keçdikcə onların fondu zənginləşir, dünyəvi ədəbiyyatda onlara yol tapa bilirdi.

Məscid kitabxanaları Azərbaycanda VII əsrdən yaranmağa başlamış VII-XII əsrdə islam dininin ölkədə daha geniş yayılması ilə əlaqədar onların şəbəkəsi artmışdı.

Əgər VII-XII əsrlər onların təşəkkülü və formalaşması mərhələsi idisə XII-XVIII əsrlər onların inkişafı və təkmilləşməsi mərhələsi olmuşdur. XII-XVIII əsrlərdə demək olar ki, Azərbaycanın şəhərləri ilə yanaşı olaraq bütün böyük yaşayış məntəqələrində məscid kitabxanaları olmuşdur. Beləliklə, Orta əsrlərdə məscid kitabxanaları Azərbaycan kitabxanalarının əsas tərkib hissəsi kimi geniş fəaliyyət göstərmişdir. Orta əsrlərdə Məscid kitabxanaları ilə yanaşı dini məktəblərin və mədrəsələrin kitabxanalarında geniş yayılmışdı. Bir qayda olaraq dini məktəblər və mədrəsələr böyük məscidlərin yanında təşkil edilirdi. Dini məktəblərdə əlifba öyrənilir və «Quran-Kərim» tədris edilirdi. Mədrəsələrdə isə yüsək ruhani kadrlar hazırlanırdı. Dini məktəblərin yanında əsasən kiçik kitabxanalar, mədrəsələrin yanında isə nisbətən böyük kitabxanalar fəaliyyət göstərirdi. Mədrəsə kitabxanalarında bir qayda olaraq mədrəsələrdə tədris edilən fənnlərə dair kitablar toplanırdı. Bu da mədrəsə kitabxanalarının daha zəngin elmi kitab fonduna malik olmasına şərait yaradırdı. Mədrəsələrdə ilahiyyət, hesab, cəbr, həndəsə, astranomiya, tibb, fəlsəfə, tarix, ədəbiyyat və s. fənlərin tədrisi nəzərə alsaq onun haqqında fikir söyləmək asanlaşır.

Mədrəsələr kitabın üzü köçürülüb çoxaldılması işində də yaxından iştirak edir, bu işdə tələbələrin köməyinden istifadə edirdilər. Hər tələbənin mədrəsə kitabxanası üçün bir kitabın üzü köçürülməsi bir ənənəyə çevrilmişdi. 1647-ci ildə tək bir Təbriz şəhərində 47 mədrəsə, 600 məhəllə məktəbi, Şamaxı şəhərində 7 mədrəsə, 40 məhəllə məktəbi var idi. Köründüyü kimi orta əsrlərdə təlim tərbiyyə və mədəni-maarif işində dini müəssisələr mühüm rol oynayırdılar.

Dini kitabxanalar içərisində təxminən 300-il fəaliyyət göstərmiş və böyük dövlət başçısı Şah İsmayıl Xətai tərəfindən əsası qoyulmuş Ərdəbil Şeyx Səfi Məqbərəsinin kitabxanası xüsusi əhəmiyyət kəsb etmişdi. Şah İsmayıl hakimiyyətə gəldikdən sonra Ərdəbildə babası Şeyx Səfinin şərəfinə əzəmətli bir məqbərə tikdirmişdi. Onun göstərişi ilə məqbərənin yanında zəngin bir kitabxana da təşkil edilmişdi. Şah İsmayıldan başlamış bütün Səfəvi hökmdarları

tərəfindən bu kitabxanaya ən qiymətli kitabları hədiyyə vermək bir ənənəyə çevrilmişdi. Həmçinin Şah İsmayıl işğal etdiyi şəhərlərdən əldə etdiyi kitabları da bu kitabxanaya verirdi. Məsələn: 1510-cu ildə Herat şəhəri işğal edildikdən sonra Herat xəttatlıq məktəbinin ən qiymətli əlyazmaları Ərdəbil kitabxanasına verilmişdi. Məhz buna görədir ki, Ərdəbil kitabxanası dini bir kitabxana kimi müntəzəm olaraq zənginləşmiş öz dövrünün ən nadir və qiymətli kitab fonduna malik zəngin bir kitabxanaya çevrilmişdi. Bu kitabxana haqqında 1637-ci ildə Azərbaycana gəlmiş səyyahlardan Qolşteyin Hersoqunun elçisi Adam Oleari və 1812-çi ildə Ərdəbildə olmuş C.Moriyer bu kitabxana ilə tanış olmuş və kitabxananın zəngin fondu və bir neçə dildə nadir kitabları olması haqqında məlumat vermişlər.

Şeyx Səfi məqbərəsi müqəddəs yer hesab edildiyindən bu kitabxana həmişə toxunulmaz qalmışdır. Kitabxananın dini kitabxana olmasına baxmayaraq onun fondunda çox qiymətli elmi əsərlərdə saxlanılır-dı. Bu kitabxana haqqında geniş məlumata malik olan rus şərqşunasları kitabxanada saxlanılan nadir kitabların əldə edilib Rusiyaya gətirilməsini Qafqaz Çanişinindən xahiş etmişdilər. 1828-ci il yanvarın 25-də Ərdəbilə daxil olan General Suxtelin kitabxananın əlyazmalarını əldə edib Rusiyaya göndərir. Şeyx Səfi məqbərəsindən gətirilmiş bütün kitablar Peterburq İmperator kitabxanasına (indiki Rusiya Milli kitabxanası) daxil edildi. Kitabların bir çoxu indi də orada saxlanılmaqdadır.



Orta əsrlərdə Azərbaycanda geniş inkişaf tapmış kitabxanalardan biri də elmi kitabxanalar olmuşdur. XIII əsrin əvvəllərində Azərbaycanda təbiətşünaslıq elmləri: Riyaziyyat, tibb, astranomiya, tarix, fəlsəfə, məntiq və s. xeyli inkişaf etmişdi. Təbriz və Marağa şəhərində inkişaf edən elm bütün islam aləminə təsir göstərirdi. Böyük Azərbaycan alimi Nəsrəddin Tusinin rəhbərliyi ilə yaradılmış Marağa rəsədxanasının elmi şöhrəti bütün dünyaya yayılmışdı. Rəsədxana yarandıqdan sonra onun ətrafında görkəmli alimlərin toplanma-sı, orada ciddi elmi tədqiqatların aparılması onun böyük elm məbədgahına - Akademiyaya çevrilməsinə səbəb olmuşdu. Rəsədxanada 100-dən artıq elmi işçinin fəaliyyət göstərməsi onun böyük tədqiqat mərkəzi olmasından xəbər verirdi. Marağa rəsədxanası təsis edildikdən (1259-1261) sonra rəsədxananın yanında Nəsrəddin Tusinin bilavasitə rəhbərliyi ilə böyük bir kitabxana yarandı. Hülaki Xan 1258-ci ildə Bağdad şəhərini tutduqdan sonra Xilafət kitabxanasında yüz illər ərzində toplanan kitabları Marağa şəhərinə köçürtdü. Bütün bu kitablar Marağa rəsədxanasına daxil edildi. İraqdan gətirilən bu kitablardan əlavə, Azərbaycandan, İraqdan, Suriyadan, İrandan, Orta Asiyadan, Turkiyədən və b. yerlərdən rəsədxana kitabxanasına kitablar toplandı. Rəsədxana kitabxanası Şam, Mövsil, Rey, Bağdad, Ələmut, Səmərqənd, Buxara, Mərv, Qəzvin, Savə, Nişabud və başqa şəhərlərdəki kitabxanaların varisi oldu. Kitabxanada kitabı toplayıb saxlamaqla yanaşı kitabın üzü köçürülüb çoxaldılması, cildlənib

458444



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

tərtib edilməsi, sahəsində də mühüm işlər görülürdü. Ona görə də kitabxanada xəttatlar, mirzələr və digər işçilər də fəaliyyət göstərirdilər. Nəsrəddin Tusinin əsərləri demək olar ki, rəsədxananın kitabxanasında hazırlanır, üzü köçürülüb çoxaldılırdı. 100-dən artıq elmi əsərlərin müəllifi olan Nəsrəddin Tusi Kitabxana işinin idarə olunmasına, onun yeni kitablarla komplektləşdirilməsinə özü rəhbərlik edirdi. Onun bir çox Şərq ölkələrinin böyük kitabxanaları ilə tanışlığı, kitabxana işini dərindən bilməsi rəsədxana kitabxanasının işini elmi əsaslarla qurmağa imkan yaratmışdı. Öz dövrünün ən böyük elmi kitabxanalarından biri olan bu kitabxananın 400 mindən artıq kitab fondu var idi.

Beləliklə, böyük Azərbaycan alimi Nəsrəddin Tusi tərəfindən yaradılmış bu kitabxana ilk elmi kitabxana kimi Şərq aləmində böyük şöhrət qazanmış, fondunun zənginliyinə, oxucuya xidmət işinin səviyyəsinə görə Şərqdə ən böyük kitabxanalardan biri hesab edilmişdi. Kitabxanada kitabların saxlanılması, kitabxana kataloqlarının yaradılması, oxuculara xidmət işinin təşkili və s. haqqında mövcud olan üsullar və qaydalar böyük mədəni əhəmiyyətə malik olmaqla, kitabxana işinin yüksək elmi səviyyəsindən xəbər verirdi.

XIII - XIV əsrlərdə Təbriz şəhərində də böyük mədəni inkişaf baş vermiş, zəngin elmi kitabxanalar yaranmışdı. Görkəmli alim Rəşidəddin 1300-cü ildə paytaxta toplanmış Şərqin alim və sənətkarları üçün Təbrizin Şimali Qərbində «Rəbi-Rəşidi» adlı kiçik bir şəhər saldırmışdı. Paytaxtın mədəni inkişafında, elm və təhsilin tərəqqisində bu şəhərciyin böyük rolu olmuşdur. Burada ilk dəfə olaraq universitet yaradılmışdı. Bu universitetdə 6-7 minə qədər tələbə təhsil alır, Çindən, Hindistandan, Suriyadan, Misirdən dəvət edilən görkəmli alimlər dərs deyirdilər. Burada çox zəngin fonda malik ilk universitet kitabxanası yaradılmışdı.

Rəbi–Rəşidi də Rəşidəddin böyük kitabxana təşkil etmişdi. Kitabxanada Şərqin bir çox ölkələrindən gətirilmiş müxtəlif dillərdə 60.000 kitab toplanmışdı. Bu kitabların min clddən çoxu ən qiymətli əlyazmalar və nadir nüsxələr idi. Bu zəngin kitab xəzinəsi 1318-ci ildə Rəşidəddinin ölümündən sonra dağıdılmışdır.

Orta Əsrdə Azərbaycanda ən çox yayılmış kitabxana tiplərindən biri də şəxsi kitabxanalar olmuşdur. Şəxsi kitabxanaların tarixi bütün mədəni, inkişaf etmiş ölkələrdə və xalqlarda olduğu kimi tarixin ən çox qədim dövrlərinə gedib çıxır. Belə bir danılmaz tarixi fakt mövcuddur ki, harada ki, mədəniyyət inkişaf etmiş, yazı, kitab meydana gəlmiş, alimlər, şairlər, yazıçılar, mədəniyyət xadimləri yetişmiş, orada şəxsi kitabxanalar yaranmışdır. Azərbaycanda da şəxsi kitabxanaların tarixi bu yolu keçmiş, zaman keçdikcə inkişaf etmiş, formalaşmış, daha zəngin, daha nadir şəxsi kitabxanalar meydana gəlmişdir. Tarixi mənbələrdə Azərbaycanda zəngin şəxsi kitabxanaların yaranması haqqında məlumatlara XII əsrdən başlayaraq daha çox rast gəlinməyə başlanmışdır. İlk böyük

şəxsi kitabxanalar hökmdarlar, böyük alimlər, şairlər, yazıçılar və mədəniyyət xadimləri tərəfindən yaranmağa başlamışdır.

Orta əsrlərdə Azərbayçanda Nizaminin, Xəqaninin, Bəhmənyarın, Xətib Təbrizinin, Əbul Vəfanın, Qətran Təbrizinin, Əbülula Gəncəvinin, Məshətinin, Fələki Şirvaninin, Mücirəddin Beyləqaninin, Nəsrəddin Tusinin və s. böyük şəxsi kitabxanaların olması haqqında məlumatlar vardır.

XVII - XVIII əsrlərdə də Azərbaycanda kitabxanalar əvvəllərdə olduğu kimi əsasən saraylarda, məscidlərdə və mədrəsələrdə fəaliyyət göstərirdilər. Tarixi qaynaqlarda yüzlərlə belə kitabxanaların olması haqqında məlumatlar vardır. İctimai kitabxanalar olduqca az idi. XVII-XVIII əsrlərdə Azərbaycanda qiymətli şəxsi kitabxanalar olmuşdur. Bunlardan Saib Təbrizinin, Qövsi Təbrizinin, Nişat Şirvaninin, Ağaməsim Şirvanin, Molla Pənah Vaqifin şəxsi kitabxana-ları daha zəngin olmuşdur.

XVII əsr şəxsi kitabxanaları içərisində Təbrizli Şərəfəddin, Məmmədrza Məczubun, XVIII əsr şəxsi kitabxanaları içərisində isə Məftun Əbdülrəzzaq Dunbilinin şəxsi kitabxanaları öz zənginlikləri ilə xüsusilə fərqlənirdilər.

XIX əsrin 20-ci illərində Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildi. İşğaldan sonra Azərbaycan mədəniyyəti rus mədəniyyətinin təsiri altında inkişaf etməyə başladı. Ölkədə yeni tipli məktəblər açıldı, milli mətbuat meydana gəldi, kitab çapı genişləndi, ictimai kitabxanalar açılmaqa başladı. Tam



olmayan məlumata görə 1842-ci ildə Azərbaycanda 713 məktəb və mədrəsə var idi. Bu məktəblərdə 7306 şagird təhsil alır, 715 müəllim çalışırdı. Belə məktəblər Bakıda, Şamaxıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Lənkəranda, Ordubadda, Qazaxda və s. şəhərlərdə də təşkil edilmiş, ölkə üzrə onların şəbəkəsi genişlənirdi. Tarixi qaynaqlardan məlum olur ki, məktəblərin demək olar ki, hamısının yanında kiçik kitabxanalar olmuşdur. Çox təəssüf ki, məktəb kitabxanaları rəsmi statistikanın obyekti olmadığından onların tam sayını müəyyənləşdirmək, onu ümumi mədəniyyət statistikasına daxil etmək mümkün olmamışdır.

Məktəb tarixinə nəzər saldıqda məlum olur ki, XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanda məktəb kitabxanalarının sayı müntəzəm olaraq artmışdır.

XIX əsrin 40-çı illərindən başlayaraq Azərbaycanda yeni tipli ictimai məktəb kitabxanaları və bir çox görkəmli elm adamlarının mədəniyyət xadimlərinin, yazıçı və şairlərin şəxsi kitabxanaları yaranmışdır.

Azərbaycan alimlərinin və yazıcıların kitabxanaları nəinki Azərbaycanda, hətta Şərqdə və Rusiyada da məlum idi. Rus alimləri Azərbaycan alimlərinin şəxsi kitabxanalarına böyük maraq göstərirdilər. Belə şəxsi kitabxanalara misal olaraq görkəmli Azərbaycan alimləri və yazıçıları Abasqulu Ağa Bakıxanovun və M.F.Axundovun, M.Kazımbəyin və s. kitabxanalarını göstərmək olar. XIX əsr Azərbaycan

mədəniyyətinin görkəmli nümayəndəsi A.Bakıxanov uzun illər boyu şərq ədəbiyyatına və tarixinə dair toplandığı kitablardan ibarət zəngin bir kitabxana təşkil etmişdi. Bu kitabxananın əksər hissəsini nadir əlyazmaları təşkil edirdi. Kitabxana iki hissədən ibarət idi. Bir hissəsi Bakıda, bir hissəsi isə Qubada saxlanılırdı. Onun zəngin kitabxanasının şöhrəti Qafqazda və Rusiyada da məlum idi. A.Bakıxanovun kitabxanası rus alimlərinin diqqətini xüsusilə cəlb etmişdi. Professor İ.Berezin şərq ölkələrinə səyahəti zamanı Qubaya Bakıxanovun yanına getmiş və onun kitabxanası ilə tanış olmuşdur. O, A.Bakıxanovun kitabxanasında olan əlyazmalarının kataloqunu tərtib edib 1849-cu ildə Qazanda nəşr etdirdiyi «Dağıstana və Zaqafqaziyaya səyahət» əsərinin əlavələrinə daxil etmişdi. Bu kitabxanaya rus alimlərinin marağını aşağıdakı məlumat bir daha təsdiq edir.

A.Bakıxanovun vəfatından sonra Qafqaz canişini M.S.Voronsovun tapşırığı ilə qafqazşünas alim N.V.Xanıkov həmin kitabxananı satın almaq üçün Qubaya gəlmişdi, ancaq kitabxananı ala bilməmişdi. 50-ci illərin əvvəllərində A.Bakıxanovun qadını Səkinə xanım bu nadir kitabxananı tam şəkildə Peterburq universitetinə bağışlamış, onun əvəzində isə çar I Nikalay Səkinə xanımı brilyant sırğalarla mükafatlandırmışdı.

XIX əsrin II yarsında Azərbaycan mədəniyyəti, ədəbiyyatı və elminin yüksək zirvələrə qaldırılmasında böyük xidmətləri olan M.F.Axundovün çox böyük bir şəxsi kitabxanası var idi. Kitab mədəniyyətinə, mütaliəyə yüksək qiymət verən M.F.Axundov kitab nəşri və kitabxana işini mədəni inkişafının mühüm sahəsi kimi qiymətləndirirdi. M.F.Axundovün şəxsi kitabxanasında şərq, qərb və rus alimlərinin yazıçılarının, filosoflarının ən nadir, qiymətli əsərlərinə belə rast gəlmək olardı. Təəssüflə qeyd etmək olar ki, M.F.Axundovün kitabxanasının nə tam kolleksiyası, nə də kataloqu bizə gəlib çatmamışdır. Ancaq arxivi çox səliqəli halda dövrümüzə gəlib çatmışdır. Bu arxivdə bir çox kitablar vardır ki, bunlar onun şəxsi kitabxanasında saxlanılan kitablarıdır. M.F.Axundovün şəxsi kitabxanasında: fəlsəfəyə, siyasətə, təbabətə, iqtisadiyyata, tarixə, coqrafiyaya, ədəbiyyatşünaslığa, dilçiliyə, texnikaya, riyaziyyata, fizikaya və s. elmlərə aid kitablar və çoxlu bədii ədəbiyyat olmuşdur. Dillərə görə isə şərq və qərb xalqlarının dillərində, ən çox isə rus dilində kitablar toplanmışdı.

XIX yüz illikdə Azərbaycanda rus mədəniyyətinin təsiri ilə elm, mədəniyyət və təhsilin inkişafı kitabçılığın inkişafına yeni kitabxanalar yaradılmasına müsbət təsir göstərmişdir. Azərbaycana Rusiyadan müntəzəm olaraq kitab gətirilməyə başlanmışdı. Bu da Azərbaycanın kitab bazarının xeyli zənginləşməsinə səbəb olmuşdu. Həm ölkə daxilində kitab nəşrinin genişlənməsi, həm də qonşu ölkələrdən kitabların gətirilməsi, yeni kitabxanalar yaratmaq üçün şərait yaratmışdı. XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda məktəb şəbəkəsinin genişlənməsi məktəb kitabxanalarının inkişafına geniş şərait ya-

ratmışdı. Bir qayda olaraq şəhərlərdə, böyük yaşayış məntəqələrində, kəndlərdə yaranan məktəblərdə kitabxanaların təşkili ənənəyə çevrilmişdi.

XIX əsrin ikinci yarısında Azərbaycanda ilk ictimai kütləvi kitabxanalar və qiraətxanalar meydana gəldi. Belə bir kitabxana Şamaxı şəhərində təşkil edilmişdi. 50-ci illərin sonlarında Şamaxı ziyalıları Qafqaz sərdarına müraciət edərək camaat üçün kitabxana açılmasına icazə istəmişdilər. 1859-cu ildə kitabxananın açılmasına icazə verildi. Kitabxana «Nücabə» cəmiyyəti binasında yerləşdirildi. Kitabxanaya xeyli kitab toplanmışdı. Ziyalılar kitabxana fondunu zən-ginləşdirmək üçün kitabxanaya kitab hədiyyə edirdilər. Bu kitabxana rus dilində və başqa dillərdə xeyli dövrü mətbuat alırdı ki, bu da kitabxananın oxucuların sayının durmadan artmasına səbəb olurdu. İctimai kitabxanaların açılması bütün XIX əsrin ikinci yarısında davam etmiş, 1859-cu ildə Şuşada, 1868-ci ildə Gəncədə, 1887-ci ildə Bakıda ictimai kitabxanalar açılmışdı. 1887-ci ildə Bakıda üç kitabxana var idi. Bu kitabxanalar birləşdirilərək 1890-cı ildə Bakı şəhər bələdiyyə idarəsinə verilmişdi. 1887-ci ildə həmçinin Qubada, Lənkəranda və Naxçıvanda ictimai (Kütləvi) kitabxanaların əsası qoyuldu.

1894-cu ilin 1 avqustunda görkəmli dövlət xadimi, yazıçı Nəriman Nərimanov tərəfindən yaradılmış ilk ictimai (kütləvi) kitabxana-qiraətxana Azərbaycanının mədəni həyatında böyük hadisə oldu. N.Nərimanov tez bir müddət içərisində Hindistan,



Misir, Bolqarstan, Türkiyə, İran və başqa ölkələrin nəşriyyatları və Rusiyanın bir çox şəhərləri əlaqə yaratmağa müvəffəq oldu. Məhz buna görədir ki, o, kitabxana açılana qədər bir çox dillərdə çoxlu qəzet, jurnal, məcmuə və kitablar almağa müvəffəq olmuşdu. Kitabxana-qiraətxana bir çox xarici ölkələrdən 25-30 adda rus, erməni, gürcü, türk, fars dillərində qəzetlər alırdı. Kitabxanaçı vəzifəsində N.Nərimanovun yaxın silahdaşı, görkəmli ziyalı Əlisgəndər Cəfərov işləyirdi. Zaqafqaziyada çıxan o dövrün mətbuatı yazırdı ki, N.Nərimanov kitabxana - qiraətxanası Zaqafqaziyada ən böyük fonda və ən çox oxucuya malik olan bir kitabxana-qiraətxana olmuşdur. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1896-cı ilin dörd ayı ərzində kitabxanaya 2500-dən çox oxucu gəlmişdi. Bu kitabxana-qiraətxana ümummilli əhəmiyyətə malik böyük işlər görürdü. Kitabxana-qiraətxananın ətrafında böyük oxucu dairəsi yaranmışdı. Geniş kütləvi işlər aparırdı. Çar senzurası və polis idarəsi bu işdən çox narahat olduqlarından 1898-ci ildə kitabxana-qiraətxananı bağladılar. Azərbaycanın görkəmli ziyalıları kitabxa-nanın bağlanmasını böyük ürək ağrısı ilə qarşıladılar.

XIX-əsrin axırında neft fəhlələrinə və mühəndis-texniki işçilərinə xidmət etmək üçün Bakıda əsasən texniki kitablar saxlayan kitabxanalar təşkil edilməyə başlamışdı. Belə kitabxanalardan biri 1895-ci ildə Bakıdakı (Qara şəhərdə) açılan A.S.Doroşenko adına kitabxana olmuşdur. Böyük maliyyə çətinlikləri olsa da kitabxana öz işini davam etdirməyə müvəffəq

olmuşdu. 1900-cu ildə kitabxananın 304 nəfər oxucusu var idi ki, bunların da 19,5 faizini fəhlələr təşkil edirdi. Kitabxananın rus dilində zəngin fondu var idi. Kitabxananın əksəriyyəti texniki kitabxanalar olmasına baxmayaraq, böyük bədii ədəbiyyat fondunda rus və dünya klassiklərinin əsərləri saxlanılırdı.

Bu dövrdə Bakıda və onun rayonlarında mövcud olan bir sıra təşkilat və cəmiyyətlər, kitabxanalar təşkil etmişdilər. Belə təşkilatlardan biri Neft Sənayeçiləri sovetinin qurultayı idi. Bu təşkilat neft fəhlələrinə xidmət etmək üçün az da olsa vəsait ayırdı ki, bu və-sait hesabına 1904-cü ildə Balaxanıda, Qara şəhərdə, Ağ şəhərdə və Bayılda 4 kitabxana təşkil etmişdi. Doğrudur kitabxanalara ayrılan vəsaitin olduqca az olması onların işini lazımi səviyədə təşkil etməyə, zəruri ədəbiyyatı əldə etməyə imkan vermirdi.

1905-1907-ci illər inqlabından qorxuya düşən neft sənayeçiləri sonrakı illərdə fəhlələrin mədəni inkişafına kömək etmək, o cümlədən kitabxanaların işini canlandırmaq məqsədi ilə ayrılan vəsaiti xeyli artırmış, kitabxanaların maddi-texniki bazasını möhkəmlən-dirmək üçün tədbirlər görmüşdü. Kitabxanalar üçün abad binalar ayrılmışdı.

Neft Sənayeləri Qurultayının kitabxanaları içərisində Balaxanı kitabxanasının fəaliyyəti daha diqqətə layiq idi. Bu kitabxananın fəaliyyətində görkəmli inqilabçı L.N.Barxatovanın mühüm rolu olmuş, kitabxana fəhlələr arasında geniş inqilabi iş aparan bir mər-kəzə cevrilmisdi.



Neft Sənayeçiləri Qurultayının kitabxanaları demək olar ki, uzun müddət öz fəaliyətlərini davam etdirmiş, az da olsa Bakının mədəni həyatında yaxından iştirak etmişlər. O, dövrdə inqilabçılar bu kitabxanalardan xalqın mədəni həyat səviyyəsinin yüksəlməsi və inqilabi iş üçün istifadə edirdilər.

Kitabxanalar öz fondlarını az da olsa inkişaf etdirməyə, oxuculara xidmət işinin səviyəsini yüksəltməyə çalışırdılar. Aşaqıdakı rəqəmlərə diqqət yetirək. Əgər 1910-cu ildə Neft Sənayeləri Qurultayının 4 kitabxanasının (Balaxanı, Qara şəhər, Bayıl, Ağ şəhər) fondunda 15.773 kitab olmuşdursa bunların sayı 1915-ci ildə 27.444 çatmışdı, həmçinin oxucuların sayı da artmışdı. Əgər 1910-cu ildə oxucuları sayı 1373 nəfər olmuşdursa da 1914-cu ildə 4 mindən artıq oxucu olmuşdur.

Neft Sənayeçiləri Qurultayının yuxarıda adını çəkdiyimiz kitabxanalarından başqa məktəb kitabxanaları da var idi. Uşaq kitabxanalarının işinin təşkilində qabaqcıl fikirli xalq müəllimləri yaxından iştirak edirdilər. Məktəb kitabxanaları uşaqlarla yanaşı olaraq məktəblərin müəllimlərinə və əməkdaşlarına da xidmət edirdilər. 1903-cu ildə məktəblilərin ümumi iclası kitabxana komissiyası seçdi. Bu komissiya məktəb kitabxanalarının işinin təkmilləşdirilməsinə uşaqların sinifdən kənar mütaliəsinin təşkilinə xüsusi diqqət yetirirdi. 1911-çi ildə neft sənayeləri qurultayının məktəb kitabxanalarından uşaqlara 21 mindən artıq kitab verilməsi buna subutdur. Bütün göstərdiklərimizlə yanaşı neft sənayeçiləri qurultayı-

nın kitabxanalarının işində ciddi nöqsanlar qalmaqda idi. Kitabxanaların maliyyə çətinliyi uzundən fondları olduqca acınacaqlı vəziyyətdə idi. Yeni kitabların alınmasına diqqət yetirilmirdi. Azərbaycan dilində kitablar yox dərəcəsində idi. 1915-ci ildə Neft Sənayeləri Qurultayının bütün kitabxanalarında Azərbaycan dilində cəmi 1002 kitab olmuşdur.

1905-1907-ci illər inqilabının təsiri ilə Azərbaycan milli mədəniyyətinin inkişafına çalışan ziyalılar xeyriyyə cəmiyyətləri təşkil edir, kitab nəşrini genişləndirməyə çalışır, kitabxanalar və qiraətxanalar açırdılar.

1906-cı ilin avqust ayında Bakıda «Nəşri maarif» cəmiyyəti yarandı. Sonradan bu cəmiyət «Nicat» cəmiyyəti kimi fəaliyyət göstərdi. Bu cəmiyyətin fəaliyyətində kitabxana və qiraətxanalar açmaq xüsusi yer tutmuşdu. Cəmiyyət 1906-cı ilin martında «Nicat» qiraətxanasını təşkil etdi. «Nicat» qiraətxanasının təşkilində hələ 1894-cü ildə təşkil edilmiş N.Nərimanovün qiraətxana-kitabxanasının kitabxanaçısı olmuş Əlisgəndər Cəfərov yaxından iştirak etmişdir. Qiraətxana Bakı şəhərində təşkil edilmiş qiraətxanalar içərisində ən çox milli ədəbiyyata malik olan və Azərbaycan mədəniyyətini təbliğ edən qiraətxana olmuş, o, dövrdə milli mədəniyətin mərkəzinə çevrilmişdi. O, dövrün mətbuatında göstərilirdi ki, «Nicat» qiraətxanası Qafqazda ən böyük müsəlman qiraətxanasıdır. Qiraatxana Rüsiyada, Qafqazda və Türkiyədə çıxan qəzetləri almağa müvəffəq olmuşdu. Qiraətxana həmçinin qonşu ölkələrindən türk dilində



kitablar almaqla öz fondunu xeyli zənginləşdirmiş, kitabxana kimi fəaliyyət göstərməyə başlamışdı. Kitabxananın fondunda 10.000 artıq kitab var idi. Bu kitabxana 1918-ci ilə qədər fəaliyyət göstərmiş, 1918-ci ildə Bakıda vətəndaş müharibəsi zamanı yandırılmışdı.

XX əsrin əvvəllərində Bakı şəhərində bir sıra xüsusi kitabxanalar da fəaliyyət göstərirdilər. Bakı kitabxanalarından biri 1905-ci ildə təşkil edilən ictimai yığıncağın kitabxanası olmuşdur. Kitabxana ictimai yığıncağın üzvlərinə xidmət etmək üçün təşkil edil-mişdi. Kitabxananın fondunda 13.000 kitab var idi. Oxucuların sayı 400 nəfər idi.

1908-ci ildə Bakı şəhərində yerli torpaq idarəsi kitabxana təşkil etmişdi. 1910-cu ildə artıq kitabxananın 3.200 nusxə kitabı var idi. Kitabxana əsasən mütəxəssislərə xidmət etməsinə baxmayaraq şəhər əhalisinədə kitabxanadan istifadə etməyə şərait yaradılmışdı.

1909-cu ildə Bakı şəhər idarəsi ali çinovniklərə, şəhər idarəsinin qulluqçu və texniki işçilərinə habelə onların uşaqlarına xidmət etmək üçün xüsusi kitabxana təşkil etmişdi. Bu kitabxanaya B.Q.Belinskinin adı verilmişdi. 1917-ci ildə kitabxananın 12.000 nüsxə kitabı var idi. Kitabxana 1920-ci ilə qədər fəaliyyət göstərmiş, sonra «Sovet kitabxanası» adlandırılaraq fəaliyyətini davam etdirmişdir.

XX əsrin əvvəllərində Bakı ilə yanaşı olaraq Azərbaycanın rayonlarında da kitabxanalar təşkil edilməyə başlamışdı. Belə kitabxanalardan Səlyanda

(1903), Maştağada (1906), Ordubadda (1906), Gəncədə (1906), Şəkidə (1906), Qaxda (1906), Zakatalada (1906), Şamaxıda (1907), Ağdamda (1907) və s. qiraətxana-kitabxanalar açılmışdı. Bu kitabxanalar böyük çətinliklə olsa da 1920-ci ilə qədər fəaliiət göstərməyə müvəffəq olmuş, xalqımızın mədəni inkişafında, təhsil və tərbiyəsinə xidmət edən ilk qaranquşlar kimi çıxış etmişlər.

1919-cu ildə Azərbaycanda mustəqil Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Müstəqil Azərbaycan Respublikasının yaranması xalqımızın həyatında çox mühüm hadisə idi. Gənc respublika tezliklə iqtisadiyyat, mədəniyyət, təhsil və tərbiyə sahəsində geniş islahatlar keçirməyə başladı.

Bu islahatlar içərisində mədəniyyət və maarif sahəsində aparılan islahatlar mühüm yer tuturdu. Kitab nəşri, kitabxana işi sahəsində də mühüm işlər görülməsi nəzərdə tutulmuşdu. Ancaq cəmi 23 ay yaşayan bu respublika sovet ordusu tərəfindən işğal edildi. Müstəqil Azərbaycan Respublikası öz fəaliyyətini dayandırdı. Bu respublikanın fəaliyyəti dövründə Bakıda cəmisi iki kitabxana: 1918-ci ildə M.Ə.Sabir adına kitabxana və 1919-cu ildə Bakı Dövlət Universitetinin kitabxanası təşkil edilmişdir. Kitabxanaların təşkilinə xüsusi əhəmiyyət verən milli dövlət, onların fəaliyyətini qaydaya salmaq üçün xeyli vəsait ayrılmış, böyük təşkilati tədbirlər həyata keçirilmişdir.

Beləliklə, 1917-1920-ci illərdə ölkədə gedən vətəndaş müharibəsi, iqtisadi çətinlik 1917-ci ilə qədər mövcud olan bir çox kitabxanaların öz fəaliyyətlərinin dayandırılmasına səbəb olmuşdu.



Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra bütün kitabxanalar milliləşdirilmiş, dövlətin sərəncamına verilmişdi. Bu dövrdə öz fəaliyyətini müvəqqəti olaraq dayandırmış olan bir çox kitabxanalar yenidən fəaliyyətə başladı.

Azərbaycanda kitabxana işinin tarixi mənzərəsinə nəzər saldıqda məlum olur ki, 1920-ci illərə qədər Azərbaycan mədəni cəhətdən inkişaf etmiş, böyük məktəb şəbəkəsi formalaşmış, təhsil sitеminə, inkişaf etmiş kitab və kitabxana mədəniyyətinə malik bir ölkə olmuşdur.

Ancaq çox təəssüf olsun ki, Azərbaycanda Sovet Hakimiyyətinin qələbəsindən sonra yaranmış sovet statistikasında və rəsmi mətbuatında Azərbaycan geridə qalmış, cəhalətin, savadsızlığın hökm sürdüyü bir ölkə kimi qələmə verilmiş, mövcud mədəni nailiyyətlərin üstündən xətt çəkmiş, statistika məlumatlar təhrif edilmişdir.

20-ci illərin statistik məlumatına görə 1913-cu ildə Azərbaycanda 18 min kitab fonduna malik olan 25 kitabxana olmuşdur. Halbuki, o dövrdə təkcə Bakı Xalq Maarif şöbəsi yanında 226.960 nüsxə kitab fonduna malik olan 38 kitabxananın fəaliyyəti haqqında məlumat vardır.

Beləliklə, 1920-ci ildə Azərbaycanda böyük kitabxana şəbəkəsi olmuşdur. Bu şəbəkəyə məktəb kitabxanaları, o cümlədən dini kitabxanalar: məscidlərin, dini məktəblərin, mədrəsələrin kitabxanaları,

kütləvi kitabxanalar, xüsusi kitabxanalar, idarə və müəssisələrin kitabxanaları, elmi kitabxanalar, cəmiyyətlərin kitabxanaları şəxsi kitabxanalar və s. daxil olmuşdur.

1920-ci ildə Azərbaycanda 965 məktəb kitabxanası olmuş (dini məktəblərin kitabxanaları daxil olmaqla) Bakı və onun rayonlarında təxminən 50-yə qədər, kənd rayonlarında isə 100-dən artıq kitabxana olmuşdur. Kitabxanaların fondu haqqında məlumat yoxdur.

1920-ci ilin aprelində Azərbaycanda Sovet Hakimiyyəti quruldu. Sovet Hakimiyyəti iqtisadiyyat, siyasət, mədəniyyət və xalq maarifi sahəsində böyük islahatlar həyata keçirməyə başladı. Azərbaycan Hökümətinin ən aparıcı nazirliklərindən biri Xalq Maarif Komissarlığı idi. Xalq Maarif Komissarlığı bütün maarif, mədəniyyət və tərbiyə işlərinə rəhbərlik edirdi. Mədəni-maarif işinə rəhbərlik də Xalq Maarif Komissarlığının sərəncamına verilmişdi. Xalq Maarif Komissarlığı kitabxana işinə dair islahatlar həyata keçirərkən RSFSR-in təcrübəsindən geniş surətdə istifadə edirdi. Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin oktyabrın 31-də «Kitabxanaların Xalq Maarif Komissarlığına verilməsi haqqında dekret verdi. Proqram xa-rakteri daşıyan bu mühüm sənəddə hökümətin kitabxanaçılıq sahəsində siyasəti öz əksini tapmışdı. Dekretə görə Azərbaycan ərazisində mövcud olan bütün kitabxanalar, kitab ambarları milliləşdirilib Xalq Maarif Komissarlığının sərəncamına verilirdi. Həmçinin dövlət mövcud kitabxanaları milliləşdirilməklə, yeni kitabxanalar açılmasının onların əhaliyə xidməti işinin qeydinə qalırdı.

Sovet Hakimiyyətinin ilk illərində və bərpa dövründə hər cür çətinliyə baxmayaraq gənc sovet hökuməti mədəniyyət, o cümlədən kitabxana işi sahəsində çox ciddi tədbirlər həyata keçirdi. Yeni kütləvi və elmi kitabxanaların təşkilinə nail oldu. Bir il müddətində 234.210 nüsxə kitab fonduna malik 45 kütləvi kitabxana təşkil edilmişdi. Bundan başqa geniş məktəb kitabxana şəbəkəsi yaranmışdı. 1920-1925-ci illərdə respublikada kitabxana işinin inkişafında böyük rolu olan Kitabxana kollektoru və Kitab palatası yaradılmışdı. Həmçinin Respublikada dövlət kitabxanaları ilə yanaşı olaraq ayrı-ayrı idarə və təşkilatların kitabxana şəbəkəsi də yaranıb formalaşmağa başlamışdı. Partiya və həmkarlar təşkilatlarının böyük kitabxana şəbəkəsi fəaliyyət göstərirdi. Bu dövrdə tədricən təhsil və elmi-texniki kitabxanaların şəbəkəsində formalaşmaqda idi.

1923-cu ildə M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasının yaranması Respublikanın mədəni həyatında mühüm hadisə oldu. Bu kitabxananın yaranması respublika elmi ictimaiyyətinə və bütün əhali-sinə kitabxana xidmətini yaxşılaşdırmaqla, kitabxana işinin elmi-metodiki mərkəzi kimi, Respublikada kitabxana işinin kələcək inkişafına böyük təkan verdi.

1920-1925-ci illərdə dövlətin kitabxana işi sahəsində həyata keçirdiyi tədbirlər nəticəsiz qalmamışdı. Bərpa illərinin axırında kitabxana işi sabitləş-

miş geniş şəhər, qəza, rayon və kənd kitabxana şəbəkələri meydana gəlmişdi. 1925-ci ildə Azərbaycanda 91 kitabxana-qiraətxana fəaliyyət göstərirdi ki, onların da fondunda 584.147 nüsxə kitab var idi.

Kitabxanalar mədəni quruculuğun əsas sahələrindən biri kimi respublikada mədəniyyətin, təhsilin və tərbiyənin inkişafında əsas amillərdən birinə çevrilmişdi.

Göstərilən müvəffəqiyyətlərlə yanaşı kitabxana işində ciddi nöqsanlar da qalmaqda davam edirdi. Kitabxanaların maddi-texniki bazası olduqca zəif idi. Kənd yerlərində kitabxanaların təşkili ləngiyirdi.

Bərpa illəri kitabxanaların yaşaması uğrunda mübarizə illəri idi. Xalq təsərrüfatının bərpasının başa çatdırılması və ölkənin sosialistcəsinə sənayeləşməsinə başlanması respublikada mədəni quruculuğun inkişafı üçün əlverişli şərait yaratdı. Xalq maarifinin tərəqqisi, savadsızlığın kütləvi ləğvi, kitab nəşrinin genişlənməsi, kitabxanaya ayrılan dövlət vəsaitinin artması və 1926-cı ildən başlayaraq kitabların dövlət büdcəsinə keçirilməsi respublikamızda kitabxana işinin inkişafına ciddi təkan verdi. Kitabxanaların cəmiyyətdə rolu və əhəmiyyəti xeyli artmaqla, ölkənin mədəni inkişafının əsas amillərindən birinə çevrilmişdi. 1926-cı ildə respublikamızda 905.100 nüsxə kitab fonduna malik olan 108 kütləvi kitabxana fəaliyyət göstərirdi.

20-ci illərdə RSFSR-dən və digər respublikalardan fərqli olarağ Azərbaycanda əhaliyə, xüsusi ilə kənd əhalisinə kitabxana xidmətinin təşkilində qiraət



komalarının xüsusi rolu olmuşdu. Kəndlərdə yeganə mədəni-maarif müəssisələri olan qiraət komaları siyasi maarif işlərini həyata keçirərkən kitab təbliğindən geniş istifadə edir, kənd əhalisinin kitaba olan tələbatını həyata keçirməyə çalışırdılar. Bu dövrdə qiraət komalarının böyük şəbəkəsi yaranmışdı. 1932-ci ildə Azərbaycanda 608 qiraət koması fəaliyyət göstərirdi.

Sənayeləşmə və birinci beşillik dövrundə kommunist partiyası və sovet dövləti kitabxana işi, şəxsi təhsil, əhaliyə kitabxana xidməti və ğiraət komaları haqqında qərarlar qəbul etmişdi. Bu qərarların yerinə yetirilməsi nəticəsində kitabxana işi sayca artmaqla xeyli təkmilləşmiş, onların əhaliyə kitabxana xidmətinin təşkili sahəsindəki fəaliyyətində böyük irəliləyiş özünü göstərməyə başlamışdı.

1934-cu ilin oktyabr ayında kitabxanaların umumittifaq siyahıya alınması keçirildi. Siyahıya alınmanın nəticəsinə görə Azərbaycanda 2.037 kitabxana olmuşdur. Bunlardan 788-i şəhərlərdə, 1.249 kəndlərdə yerləşirdi. Bütün kitabxanalarda 4.485.907 nüsxə kitab var idi. Bu dövrdə respublikamızda kitabxana işinin inkişafının xarakterik xüsusiyyətlərindən biri də kənd əhalisinə kitabxana xidmətinin kökündən yaxşılaşdırılması idi. Beləliklə 1932-ci ildə respublikanın kənd yerlərində xalq maarif komissarlığının 80.1 min kitab fonduna malik olan 57 kütləvi kitabxanası var idisə, 1937-ci ildə onların sayı 774-ə, kitab fondu isə 3 milyon 304 minə çatmışdı. Beşillik muddətində kitabxanaların sayı 14 dəfə, kitab fondu isə dörd dəfə çoxalmışdı.

30-cu illərin əvvəllərindən başlayaraq uşaq və məktəb kitabxanalarının təşkil edilməsinə diqqət artmışdı. Artıq 1940-cı ildə Azərbaycanda 1.367.321 nüsxə kitab fonduna malik 2.480 məktəb və uşaq kitabxanası fəaliyyət göstərirdi.

30-cu illərdə respublikada baş verən böyük mədəni yuksəliş, elmi texniki tərəqqi, elmi və elmi-texniki kitabxanaların inkişafına müsbət təsir göstərmişdi. 1934-cu ildə Azərbaycanda 1.662.572 nüsxə kitab fondu olan 537 elmi, elmi-texniki və xüsusi kitabxana olmuşdur.

Beləliklə, Böyük Vətən Müharibəsi ərəfəsində Azərbaycanda zəngin kitab fonduna malik olan geniş kitabxana şəbəkəsi yaranıb formalaşmışdı. 1940-cı ildə respublikamızda 2.612 min kitab fonduna malik olan 1.383 kütləvi kitabxana, 50 müstəqil uşaq və 2.480 məktəb kitabxanası, 845. 918 kitab fondu olan 127 həmkarlar ittifaqı kitabxanası, 263 elmi, elmi-texniki və xüsusi kitabxana fəaliyyət göstərirdi. Umumiyyətlə, 1940-cı ildə Azərbaycanda 4.282 kitabxana fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində kitabxanaların sayı 117 dəfə artmışdı.

1941-1945 Böyük Vətən müharibəsi illərində respublikanın kitabxanaları öz işlərini müharibənin qələbəsi uğrunda mübarizəyə həsr etdi. Doğrudur müharibənin ilk illərində kitabxana işinin inkişaf təmayülü əsasən dayanmışdı. Bir çox kitabxanalar, xüsusi ilə kənd kitabxanaları bağlanmağa məruz qaldılar. Təcrübəli kitabxana işçilərinin bir çoxu ordu sıralarına səfərbər edildiyindən kadr çatışmamazlığı



baş verdi. Respublikada kitab nəşrlərinin azalması kitabxanaların komplektləşdirilməsi işini olduqca çətinləşdirmişdi. Bəzi rəqəmlərə diqqət yetirək. 1940-cı ildə Respublikamızda 1383 kütləvi kitabxana var idisə, bunların sayı 1943-cu ildə 575-ə, klubların sayı 1.683-dən 1.134-ə düşmüşdü. Göründüyü kimi ən çox bağlanmağa məruz qalan kütləvi kitabxanalar olmuşdur. Respublika kitabxanalarının bağlanması prosesi uzun sürmədi. Artığ 1943-cu ildən bu proses tamamilə dayandı və kitabxanalar sürətlə bərpa olunmağa başladılar. Artıq 1945-ci ildə respublikada 2.828.499 nüsxə kitab fondu olan 765 kütləvi kitabxana fəaliyyət göstərirdi.

Bütün bu çətinliklərə baxmayarağ Azərbaycanın kitabxana işçiləri öz qüvvələrini səfərbər etməyə, ön cəbhədə döyüşən orduya kitab və digər əşyalarla kömək etməyə, arxa cəbhədə geniş təbliğat-təşviqat işi aparmağa, əhaliyə xidmət işini müvəffəqiyyətlə davam etdirməyə nail oldular. Kitabxanalar o zaman respublikamızda yerləşdirilmiş hərbi xəstəxanalara və qospitallara kitabla xidmət işini də layiqincə yerinə yetirirdilər. Müharibə illərində kütləvi kitabxanalarla yanaşı olarağ elmi, elmi-texniki təhsil və digər kitabxana şəbəkələri də geniş fəaliyyət göstərirdilər. M.F.Axundov adına Respublika Dövlət Kitabxanası 40 min oxucuya xidmət etmiş və onlara milyondan artıq kitab, qəzet, jurnal vermişdir. Respublika Elmi Texniki Kitabxanası isə muharibə illərində 9 min oxucuya xidmət etmiş, onlara 800 minə yaxın kitab vermişdir. Olduqca sadə görünən bu rəqəmlər kitab-

xana kollektivlərinin müharibənin ğələbəsinə kiçik töhfələri idi.

Müharibədən sonrakı illərdə Azərbaycan hökuməti kitabxana işinin bərpa və inkişaf etdirilməsinə xüsusi diqqət yetirməyə başladı. 1946-50-ci illərdə Azərbaycan xalq təsərrüfatının və mədəniyyətinin bərpa və inkişafına dair beşillik plan ğəbul edildi. Bu plana müvafiq olarağ 1946-1950-ci illərdə Azərbaycanda mədəni-maarif müəssisələrinin bərpa və inkişafına dair beşillik plan tutuldu. Bu planın yerinə yetirilməsində hələ 1945-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin yanında təşkil edilmiş Respublika Mədəni-Maarif Müəssisələri Komitəsi böyük rol oynadı. Mədəni-Maarif Müəssisələri Komitəsi qısa bir müddət ərzində respublikada kitabxana işi sahəsində müharibə dövründə meydana gəlmiş geriliyi aradan qaldırmaq, kitabxana şəbəkəsini bərpa etmək üçün beşillik planın əsas müddəalarını həyata keçirməyə başladı. Komitə dördüncü beşillikdə Azərbaycanda kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək sahəsində xeyli iş görməyə müvəffəq olmuşdu. Respublikanın rayonlarında kütləvi surətdə mədəni-maarif müəssisələri tikilməyə başladı. Respublikanın tarixində ilk dəfə olaraq 13 rayon mərkəzində xüsusi nümunəvi kitabxana binaları tikilib istifadəyə verildi. Yüzlərlə rayon və kənd kitabxana binaları əsaslı təmir edildi. Müharibədən sonrakı beşillik planın yerinə yetirilməsi nəticəsində təkcə Mədəni-Maarif Müəssisələri Komitəsi sistemində olan kitabxanaların sayı 1946-cı ildəki 764 -dən 1951-ci ildə



2.452-yə çatmış beş il müddətində 1.728 yeni kitabxana açılmışdı. Beşillik müddətində bu kitabxanaların kitab fondu üç dəfəyə ğədər artmışdı. Kitab fondu isə artıq 1946-cı ildəki 996.200 nüsxədən 2.912.200 nüsxəyə çatmışdı. Bundan əlavə beşillik dövrundə 50-dən artıq həmkarlar ittifaqı kitabxanası 20-dən çox elmi kitabxana, məktəb kitabxanası fəaliyyətə başlamışdı.

Müharibədən sonrakı illərdə kitabxana işi sahəsində baş verən mühüm hadisələrdən biri yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasına başlanması olmuşdu. 1947-ci ildə Bakı Dövlət Universiteti filologiya fakultəsinin yanında kitabxanaçılığ şö'bəsinin açılması ilə respublikamızda ali təhsilli mütəxəssis kitabxanaçı kadrların hazırlanmasının əsası ğoyuldu.

Müharibədən sonrakı illərdə respublikada elmi və xüsusi kitabxanaların inkişafında əlamətdar illər olmuşdur. Respublika Elmlər Akademiyasının yaranması, yeni-yeni elmi tədqiqat institutlarının fəaliyyətə başlaması, yeni ali məktəblərin açılması respublika elmi kitabxana şəbəkəsinin daha da genişlənməsinə səbəb olmuşdu.

Bu dövrdə M.F.Axundov adına Respublika Dövlət Kitabxanası öz fəaliyyəti ilə daha da fərqlənirdi. Respublikada kitabxanaların metodik mərkəzi kimi böyük elmi-metodik işlər aparır, kitabxanaşünaslıq və bibiloqrafiya sahəsində elmi-tədqiqat işlərinin aparılmasına səy göstərirdi.

Kitabxananın oxuculara xidmət fəaliyyətində də böyük keyfiyyət dəyişiklikləri baş vermişdi. Kitabxana 6 il müddətində 40 minə yaxın oxucuya xidmət etmiş, hər il bu oxuculara orta hesabla 300 min nüsxədən artığ ədəbiyyat vermişdir.

Müharibədən sonrakı ikinci beşillik respublikamızda kitabxana işinin inkişaf beşilliyi kimi xarakterizə olunur. Bu dövrdə kütləvi kitabxanaların sayının artırılması, kənd əhalisinə kitabxana xidmətinin ön plana çəkilməsi əsas vəzifə kimi qarşıda qoyulmuşdu. Bu vəzifələrin yerinə yetirilməsində 1953-cü ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə yaradılmış Azərbaycan SSR Mədəniyyət Nazirliyinin böyük rolu olmuşdur. Nazirliyinin yaradılması respublikada bütün mədəniyyət idarələrinə rəhbərliyin vahid əldə birləşməsinə səbəb olmaqla bu mühüm iş mərkəzləşdirildi və eyni mərkəzdən idarə edilməsini təmin etdi. Mədəniyyət Nazirliyinin yaranması kitabxana işinə rəhbərliyin təkmilləşdirilməsinə onun digər müəssisələrlə əlaqəsinin güclənməsinə səbəb oldu. Daha böyük səlahiyyətlərə malik olan mədəniyyət nazirliyi yerlərdə kitabxana işinə daha dərindən nüfuz etməyə başladı. 1950-1955-ci illərdə kitabxana işinə ayrılan vəsaitin əhəmiyyətli dərəcədə artması ilə əlaqədar kitabxanaların maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, fondları əhəmiyyətli dərəcədə çoxaldılmışdı. Faktlara müraciət edək: Əgər 1950-ci ildə Azərbaycanda 4.203.1 nüsxə kitab fonduna malik olan 2.290 kütləvi kitabxana var idisə, 1955-ci ildə 9.614.2 nüsxə kitab fonduna malik olan 2.394 kütləvi



kitabxana fəaliyət göstərirdi. Beş il müddətində 104 kitabxana açılmış, onların kitab fondu isə 5.811.1 nüsxə artmışdı. Oxucularla aparılan işin səmərəli təşkili kitabxanaların oxucularının artmasına da səbəb olmuşdu. Belə ki, 1955-ci ildə 1950-ci ilə nisbətən oxucuların sayı 152.6 nəfər, kitab verilişi isə 2.981.7 nüsxə artmışdı. Müharibədən sonrakı ikinci beşillik planın kitabxana işi sahəsində əsas göstəricilərinin müvəffəqiyyətlə yerinə yetirilməsi bu işin perspektiv inkişafı üçün də əlverişli şərait yaratmışdı. Yerli hakimiyyət orqanlarının kitabxana işinə daha ciddi əhəmiyyət verməsi kitabxana şəbəkələrinin genişlənməsi ilə yanaşı, kitabxana işinin məzmununda da keyfiyyət dəyişikliklərinin baş verilməsinə səbəb olmuşdu.

Ümumiyyətlə 50-ci illərin axırları kitabxana işi sahəsində tərəqqi illəri kimi xarakterizə olunur. Aşağıdakı rəqəmlər dediklərimizi təsdiq etməklə bu dövr üçün kitabxana işinin məzmununu açmağa imkan yaradır. 1958-ci ildə Azərbaycanda 20 milyondan artıq kitab fonduna malik 5.776 kitabxana var idi. Bunların 2.583-ü kütləvi kitabxanalar idi. Ən böyük şəbəkəyə malik olan mədəniyyət nazirliyinin 7.921.1 min kitab fondu olan 1.115 kütləvi kitabxanası fəaliyyət göstə-rirdi. Həmçinin həmkarlar təşkilatının 222.9 min kitab fondu olan 157, kolxozların isə 887.3 min kitab fondu olan 492 kütləvi kitabxanası var idi.

Respublikada kütləvi kitabxanalarla yanaşı olaraq elmi, elmi-texniki və xüsusi kitabxanalar da xeyli inkişaf etmişdi. 1958-ci ildə 149 elmi, elmi-texniki və

xüsusi kitabxana fəaliyyət göstərirdi. Ali və orta ixtisas məktəblərində 56 kitabxana müəllim və tələbələrə xidmət edirdi. Respublikanın ümumtəhsil məktəblərində isə 2.667 məktəb kitabxanası var idi.

1959-cu ilin sentyabr ayında Sov.İKP.MK-sı «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etmişdi. Qərarda kitabxanaların maddi texniki bazasının möhkəmləndirilməsi, kitabxana işinə vəsaitin artırılması, kitabxanaların plana uyğun yerləşdirilməsi bütün yaşayış məntəqələrində kitabxanalar açılması və kitabxana kitabının hər bir ailəyə çatdırılması məsələsi irəli sürülürdü.

60-cı illər Azərbaycan kitabxanalarının tarixinə kitabxanaların planauyğun yerləşdirilməsi və kitabxana kitabının hər bir ailəyə çatdırılması, oxucuya xidmət işinin keyfiyyətcə yaxşılaşdırılması illəri kimi daxil olmuşdur. 60-cı illərdə Azərbaycanda bu qərarın yerinə yetirilməsi üçün xeyli iş görülmüşdü. Respublikada 1959-1965-ci illərdə yeni mədəni-maarif müəssisələrinin tikintisinə 5 milyondan artıq vəsait ayrılmış, respublikanın 45 rayonunda 78 yeni kitabxana binası tikilib istifadəyə verilmişdi.

1960-1965-ci illərdə respublikamızda şəhər kitabxanalarının sayı 70 ədəd artmışdı. 1960-cı ildə 417 şəhər kitabxanası var idisə onların sayı 1965-ci ildə 487-ə çatmışdı.

60-cı illərdə kitabxana işi sahəsində ciddi nöqsanlar da ortaya çıxdı. 1963-cu ildə Azərbaycan Mədəniyyət Nazirliyi vəsait çatışmamazlığını əsas götürərək kənd kitabxanalarının ictimai əsaslarla keçirilməsi haqqında əmr vermişdi. Azərbaycan kitabxana işinə böyük zərbə olan bu əmrin yerinə yetirilməsi nəticəsində 514 kənd kitabxanası ləvğ edildi. Azərbaycan hökuməti bu səhvi düzəltmək məqsədilə bütün 60-70-ci illər boyu ləvğ edilən kitabxanaları bərpa etməyə çalışmışdır. Göstərilən nöqsanlara baxmayaraq 60-cı illərdə respublikamızda kitabxana şəbəkəsi inkişaf edib genişlənmiş, kitab fondları zənginləşmiş, oxuculara xidmət işinin yaxşılaşdırılması, xüsusi ilə də kitabxana kitabının hər bir ailəyə çatdırılması nəticəsində oxucuların miqdarı xeyli artmışdı.

Rəqəmlərə müraciət edək. Əgər 1956-cı ildə respublikada 14.732 min nüsxə kitab fonduna malik olan 2.494 kütləvi kitabxana var idisə, bunların sayı 1970-ci ildə 2.922-yə çatmış kitab fondu isə 22.952 min nüsxə olmuşdu.

Oxuculara xidmət işində xeyli yaxşılaşmış bu işdə böyük keyfiyyət dəyişilikliyi baş vermişdi. Əgər 1960-cı ildə kütləvi kitabxanalar 725 min nüsxə kitab vermişdisə, 1970-ci ildə 1.578 min oxucuya xidmət etmiş və onlara 42.098 min nüsxə kitab vermişdir.

Azərbaycan tarixində mühüm mərhələ təşkil edən 70-80-ci illərdə respublikamızda xalq təsərrüfatının, sənayenin, iqtisadiyyatın bütün sahələri ilə yanaşı olaraq mədəniyyət, elm və təhsil sürətlə inkişaf etmişdi. Bu illər kitabxana tarixi üçün olduqca əlamətdar olmuşdu.

70-ci illərdə Sov.İKP.MK-nın «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə

kitabxanaların rolunu artırmaq haqqında» qərarına müvafiq olaraq bütün keçmiş sovetlər ittifaqında olduqu kimi Azərbaycanda da kitabxanaların mərkəzləşdirilməsi illəri kimi xarakterizə olunur. Məhz bu illərdə respublikada əsasən mədəniyyət nazirliyinin kütləvi kitabxanaları mərkəzləşdirilmiş bu proses 80-ci illərdə də davam edərək təkmilləşdirilmişdir. Respublika Elmlər Akademiyası kitabxana şəbəkəsinin mərkəzləşdirilməsi də diqqətəlayiq hadisə idi.

70-80-ci illərdə respublikada kitabxana işi sahəsində indiyə qədər həll edilməsi mümkün olmayan bir çox, keyfiyyətcə yeni, mürəkkəb problemlər həll edilmişdir. Bu problemlər içərisində: kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşməsi və müntəzəm olaraq təkmilləşməsi, kitabxanaların məlumat fəaliyyətinin inkişafı ilə əlaqədar onların funksiyalarının əhəmiyyətli dərəcədə genişlənməsi, kitabxana fondlarının formalaşmasının əsaslı şəkildə yaxşılaşdırılması, depozitar kitabxana fondlarının yaradılması, kitabxanaşünaslıq və biblioqrafiya sahəsiində elmi-tədqiqat işlərinin ge-nişləndirilməsi, müxtəlif tipli kitabxana şəbəkələrinin işlərinin əlaqələndirilməsi və s. daha çox diqqəti cəlb edir.

Yerlərdə bir neçə il müddətində hazırlıq işləri həyata keçirildikdən sonra 1975-1980-cı illərdə respublikada kütləvi kitabxanaların mərkəzləşməsi işi başa çatdırıldı. Mərkəzləşmə nəticəsində 3174 filialları olan 69 rayon mərkəzləşdirilmiş sistemi yaradıldı. Həmçinin respublikanın 8 şəhərində 111 filialı olan şəhər mərkəzələşdirilmiş sistemi yaradıldı. Kitabxanaların mərkəzləşdirilməsi öz dövrünün ən qabaqcıl iş üsullarından biri kimi tez bir müddət içərisində əhaliyə kitabxana xidmətinin təşkili sahəsində böyük keyfiyyət dəyişikliklərinin baş verməsinə şərait yaratdı. Mərkəzləşmə müddətində kütləvi kitabxanaların kitab fondu 5 milyon nüsxə, kitab verilişi 9 milyon nüsxə, oxucuların miqdarı 510 min nəfər artmış, 332 yeni kitabxana (filial) açımışdı.



80-ci illərdə respublikada kitabxana işinin dinamik inkişafı, əhaliyə kitabxana xidmətinin daha da təkmilləşdirilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi sahəsində ciddi irəliləyiş baş vermiş, kitabxanalar xalqın mənşəyinə daxil olmağa başlamışdı. Azərbaycanda kitabxana kitabından istifadə etməyən ailəyə olduqca az rast gəlmək olardı. Kitabxana işində meydana gələn yeni və mütərəqqi iş üsulları əhalinin kitabxanaya marağını xeyli artırmışdı. Həmçinin bu dövrdə kitabxanaların elmi-texniki tərəqqidə iştirakı, onların informasiya funksiyasının daha da artmasına gətirib çıxartmışdı. Kitabxanaların informasiya mərkəzləri kimi formalaşması prosesi başlanmışdı. Bununla bərabər 80-ci illərdə kitabxana işi sahəsində geniş müşahidə edilən kəmiyyət artımında qeyd etmək yerinə düşərdi. Əslində istənilən inkişaf prosesinin dialektik vəhdətdə olan iki tərəfi: kəmiyyət və keyfiyyət tərəfi vardı. Məhz bu iki tərəfin birlikdə fəaliyyəti kitabxana işinin müasir inkişafını təmin etməyə imkan yaradır.

Beləliklə, 80-ci illərin axırında Azərbaycanda 114.9 min kitab fondu olan 9.548 kitabxana var idi.

Bu kitabxanaların 40.4 min nüsxə kitab fonduna malik olan 4.293-u kütləvi kitabxanalar idi. Ümumiyyətlə kütləvi kitabxanaların oxucularının miqdarı da artaraq 1980-ci ildə olan 2.7 min nəfərdən 1986-cı ildə 3.3 min nəfərə çatmışdı. Kitabxana işinin kəmiyyət göstəricilərində baş verən bu artım Mədəniyyət Nazirliyinin göstəricilərində də baş vermişdi. Belə ki, 1986-cı ildə bu kitabxanaların miqdarı 3.895, oxucusu 2857,7 min nəfər, fondu 31272,1 min nüsxə kitab verilişi 60097,4 min nüsxə olmuşdursa, 1988-ci ildə bu rəqəmlər müvafiq olaraq 3.942, 2875,5 min, 32774,1 min və 60969,4 min olmuşdur. Bu yüksəliş hər şeydən əvvəl kitabxana işinin cəmiyyət həyatının, bütün sahələrinə nüfuz etməsi, geniş xalq kütlələrinin mədəni səviyyəsinin yüksəlməsi, kitabxananın həyata keçirdiyi tədbirlərin daha da məqsədyönlü olması ilə müşayiət olunur.

70-80-ci illərdə Azərbaycanda elmi, elmi-texniki, xüsusi və təhsil kitabxanalarının böyük şəbəkəsi fəaliyyət göstərirdi. Bunların içərisində Respublika Dövlət kitabxanası, 6 respublika sahəvi kitabxanaları 17 ali məktəb və Azərbaycan Elmlər Akademiyası kitabxana şəbəkəsi kitabxanalarını göstərmək olar. Xüsusi statusa və kadr potensialına malik olan bu kitabxanalar respublikada xalq təsərrüfatının, elmin, mədəniyyətin inkişafında böyük xidmətləri olmuşdur. Göstərilən kitabxanalar respublikada metodik mərkəz statusuna malik olduqlarından kitabxanaların metodik təminatında böyük işlər görməklə, respublikada kitabxana işinin inkişaf istiqamətinin



müəyyənləşdirilməsində yaxından iştirak edirdilər. Bu kitabxanalar həmçinin respublikada kitabxanaşünaslıq və biblioqrafiya sahəsində elmi-tədqiqat işinin təşkilində də geniş fəaliyyət göstərirdilər.

Respublikada kitabxanaşünaslığa və biblioqrafiyaşünaslığa dair elmi-tədqiqat işinin aparılması bilavasitə Bakı Dövlət Universiteti kitabxanaçılıq-informasiya fakultəsinin fəaliyyəti ilə bağlı idi. Fakültədə onlarla elmlər doktoru və namizədləri çalışır, monoqrafiyalar, məqalələr, dərsliklər, dərs vəsaitləri yazılıb nəşr edilir. Kitabxanalar üçün yüksək ixtisaslı kadrlar hazırlanırdı.

Beləliklə, 80-ci illərin axırı 90-cı illərin əvvəllərində Azərbaycanda əhalinin bütün təbəqələrinə xidmət edən təkmilləşmiş kitabxana sistemi fəaliyyət göstərirdi. Bu sistemə dövlət kitabxanaları, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai-siyasi təş-kilatların kitabxana şəbəkəsi daxil idi. Respublikada geniş, universal: universal elmi, universal kütləvi, xüsusi, elmi-texniki, və təhsil kitabxana şəbəkələri meydana kəlib formalaşmışdı. Kitabxana işi ümumdövlət əhəmiyyəti kəsb etmiş, dövlət qayğısı ilə əhatə edilmişdi. Kitabxana işi sahəsində əhaliyə xidmət prosesinin vahid elmi əsasları formalaşmışdı. 1990-cı ilin əvvəllərində respublikada 120 milyondan artıq kitab fondu olan 10.000-ə yaxın kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanalar 4 milyon oxucuya xidmət edirdilər. Bu rəqəmlər dünyanın qabaqcıl, inkişaf etmiş respublikalarına müyəssər olmayan rəqəmlərdir.

Respublikada ixtisaslı kitabxanaçı kadrlar hazırlayan təhsil müəssisələri şəbəkəsi sistemi yaranmışdı. Bunun ilk mərhələsi şagirdlik, son mərhələsi isə aspiranturadır. 1938-ci ildən orta ixtisaslı kadr hazırlayan kitabxanaçılıq texnikumu, 1947-ci ildən isə yüksək ixtisaslı kadr hazırlayan Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsi fəaliyyət göstərir. Kitabxanaçılıq fakültəsi son 54 il müddətində 5.000 artıq yüksək ixtisaslı, ali təhsilli kitabxanaçı kadrlar hazırlamışdır. Bu kadrlar respublikanın kitabxanalarının məqsədyönlü idarə edilməsində yaxından iştirak etməkdədirlər. Göstərilən dövrdə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində böyük elmi-tədqiqat potensialı yaranmış, Azərbaycan kitabxanaşünaslığı elmi məktəbi formalaşmışdır. Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığa dair onlarla namizəlik və doktorluq dissertasiyası müdafiə edilmiş, yüzlərlə monoqrafiya, dərslik, dərs vəsaitləri və elmi məqalələr nəşr olunmuşdur. Hazırda fakültədə 2 nəfər elmlər doktoru, professor, 1 nəfər elmlər namizədi, professor, 16 nəfər elmlər namizədi dosent fəaliyyət göstərir.

Azərbaycan xalqı 1991-ci ilin axırlarında öz müstəqilliyini elan etdi. Müstəqil, suveren Azərbaycan dövlətinin yaranması xalqımızın tarixində çox böyük hadisə oldu. Azərbaycan xalqı əsrlərdən bəri arzu-sunda olduğu müstəqilliyə qovuşdu və öz taleyinin sahibinə çevrildi. Azərbaycanda müstəqil, suveren, hüquqi, demokratik, dünyəvi dövlətin yaranması xalqın taleyini kökündən dəyişməklə, ona milli



ənənələrimizə , soy kökümüzə qayıtmaq imkanı verdi. Ölkədə iqtisadi, siyasi sahədə keçirilən islahatlarla yanaşı mədəniyyət, təhsil və ideoloji sahədə də geniş islahatlar həyata keçirməyə başladı. Bu islahatlar ölkədə demokratiyanın inkişafı, açıq cəmiyyət quruculuğu üçün geniş şərait yaratdı. Kitabxana işinin demokratikləşdirilməsi sahəsində ciddi tədbirlər həyata keçirildi.

Müstəqil Azərbaycan dövləti mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı, bu sahədə aparılan işlərin davam etdirilməsi üçün mühüm işlər gördu. Müstəqillik əldə edildikdən sonra erməni təcavüzkarlarının ölkəmizə hücumu ərazimizin 20 % -in işğal edilməsi, bir milyondan artıq əhalinin məcburi qaçqın halına düşməsi 90-cı illərin əvvələrindən başlayaraq bu günə qədər müharibənin uzanması, ölkədə baş verən iqtisadi çətinliklər kitabxana işinə də öz mənfi təsirini göstərmişdi. İşğal olunmuş ərazidə yerləşən 1000-dən artıq kitabxana və onların fondunda olan 4 milyondan artıq kitab erməni faşistləri tərəfindən dağıdılmış, vəhşicəsinə yandırılmışdır. Bu Azərbaycan mədəniyyətinə dəyən ən böyük zərbə idi. Həmçinin müharibə şəraitindən doğan çətinliklər kitabxana işinin inkişafını ləngitmiş, əhaliyə xidmət işində böyük çətinliklər baş vermişdi. Göstərilən çətinlyklərə baxmayaraq Azərbaycan dövləti kitabxanaların bağlanmasının, sayının azaldılmasının qarşısını almağa müvəffəq oldu. Bəzi ictimai-siyasi təşkilatların kitabxanalarını nəzərə almasaq, demək olar ki, dövlət kitabxana şəbəkəsi qo-

runub saxlanıldı. Bunu çox böyük hadisə kimi qiymətləndirmək yerinə düşərdi. 1993-cu ildən başlayaraq respublikada yaranmış yeni stabil şərait, iqtisadiyyatın inkişafında baş verən irəliləyiş, mədəniyyətin inkişafı üçün əlverişli şərait yaratdı. Kitabxana işinə ayrılan vəsait ilbəil az da olsa artmağa başladı, kitabxanaların kitabla təchizi işi qismən də olsa qaydaya düşdü.

Hal-hazırda Respublikamızda 38,7 milyon kitab fonduna malik 4374 kütləvi kitabxana fəaliyyət göstərir. Bu kitabxanalar 2.984 min oxucuya xidmət edir.

1999-cu ildə Respublikanın Milli Məclisi «Kitabxana işi haqqında Azərbaycan Respublikasının qanununu» qəbul etdi. Ölkənin mədəni həyatında mühüm hadisə olan bu qanun kitabxana işi sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirdi, kitabxana işinin təşkili və idarə edilməsini dövlətin əsas fəaliyyət sahəsi olduğunu əsaslandırdı. Kitabxana işinin qanunla tənzim edilməsi üçün şərait yaratdı. Hal-hazırda müasir dünyanın ən demokratik prinsiplərinə əsaslanan, avropa standartlarına cavab verən və ümumbəşəri sərvət-lərdən bəhrələnən bu qanun işlənməkdədir. Azərbaycanın bütün kitabxanalarında qanunun əsas müddəaları dövlət tərəfindən müvəffəqiyyətlə həyata keçirilməkdədir.



## *ƏDƏBİYYAT*


1. Azərbaycan tarixi.- B.,1994.- 687 s.
2. Azərbaycan tarixi.- B.,1996.- 870 s.
3. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən: (1870-1920-ci illər).-B.,1960.-96 s.
4. Xələfov A.A. Sovet Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ci illər).-B., 1960.-188 s.
5. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1960-ci illər).-B., 1974.- 244 s.
6. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdən XVIII əsrin axırınadək).-B., 1986.- 52 s.
7. Xələfov A.A. Kitabxana işinin tarixi kursuna giriş B., 1996, 36s.
8. Xələfov A.A. Azərbaycanda ali kitabxanaçılıq təhsili.- B., 1996.- 126 s.
9. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik.- B., 2001.-400s.

Nəşriyyatın direktoru: Balakişi Ağayev

Baş redaktor: Məmməd Əlizadə

Mətbəə üzrə direktor müavini: Ələs Qasımov

Kompüter tərtibçisi: Vəfa Hacıyeva

Yığılmağa verilmişdir 19.10.2001-ci il
Çapa imzalanmışdır: 7.11.2001-ci il
Kağız formatı 60x84 1/16/
Fiz.ç.v.3,5.nəşr.ç.v.3,.375.Tirajı 400.

---

Bakı Universiteti nəşriyyatı,
Bakı – 370148, Z.Xəlilov küçəsi, 23.
BDU Nəşriyyatının mətbəəsi

2001
1323

844